

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 184 (23.346)

*2 oktyabr 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 1-də Bakının Nərimanov rayonundakı Atatürk prospektində yerləşən parkda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya parkda görülən işlər barədə məlumat verilərək bildirilib ki, parkda yenidənqurma işlərinə cari ilin may ayından başlanılıb. Layihə çərçivəsində parkda əsaslı yenidənqurma işləri aparılıb, landşaft dizaynı yenilənib. Bütün yaş qruplarına aid vətəndaşlar nəzərə alınaraq onlar üçün xüsusi guşələr yaradılıb. Parkda uşaq əyləncə və trenajor qurğuları quraşdırılıb. Burada, həmçinin konsert meydançası da var.

* * *

Oktyabrın 1-də Bakının Nəsimi rayonunda 28 May, Dilarə Əliyeva və Fikrət Əmirov küçələrinin kəsişməsində yeni park istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda yaradılan şəraitlə tanış olublar.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə həyata keçirilən növbəti siyahıya alınmada iştirak edərək siyahıyaalma və sorğu vərəqələrinin suallarını cavablandırıb.



## Tarixi kənd müasir inkişaf mərhələsində

### *Babək rayonunun Kültəpə kəndində yeni sosial obyektlər istifadəyə verilib*

Naxçıvan kəndləri bu gün yeni inkişaf mərhələsinə qədəm qoyub. Babək rayonunun Kültəpə kəndi də abadlaşmış, müasir infrastruktur yaradılmışdır. Bu il kəndin quruculuq tarixinə yeni səhifələr yazılmış, məktəb binası, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilmiş, avtomobil yolu yenidən qurulmuşdur. Quruculuq işləri kənddə insanların rahat yaşayışına, təsərrüfat sahələrinin daha da genişlənməsinə səbəb olmuşdur.

## Kültəpə kənd tam orta məktəbinin açılışı olmuşdur

Sentyabrın 30-da Kültəpə kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.





Məlumat verilmişdir ki, 360 şagird yerlik 3 mərtəbəli məktəb binası ən müasir tədris infrastrukturuna malikdir. Məktəbdə 20 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, şahmat sinfi, kompüter,



müəllimlər və psixoloq otaqları, kitabxana və idman zalı vardır. Məktəb zəngin kitabxana fonduna malikdir. Hazırda kitabxanada 2024-ü dərslik və 2937-si bədii ədəbiyyat olmaqla, 4961 kitab vardır. Eyni zamanda təhsil ocağında yeni texnologiyaların tətbiqi diqqətdə saxlanılmış, sürətli internetə çıxış imkanı yaradılmış, 19 kompüter, 3 elektron lövhəli sinif istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında" 2019-cu il 2 avqust tarixli Sərəncamına uyğun olaraq muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Tarix Muzeyi arasında interaktiv dərs keçilmişdir.

Ali Məclisin Sədri interaktiv dərsi izləmişdir.

Gənclərin fiziki hazırlığı və hərbi-vətənpərvərlik tərbiyəsinin təşkili üçün lazımi şərait yaradılmış, idman zalı və hərbi kabinə istifadəyə verilmişdir. Həmçinin şagirdlər fizika, kimya və biologiya laboratoriyalarında quraşdırılan avadanlıqlardan, eləcə də elektron dərsliklərdən istifadə edərək dəqiq elmləri daha yaxşı mənimsəyəcəklər. Bildirilmişdir ki, "Pillə-pillə" və "Debütdə buraxılmış səhvlərə aid 1000 oyun" kitabları dərs vəsaiti kimi şahmatın tədrisində səmərəliliyi xeyli artırır.

Ali Məclisin Sədri fiziki tərbiyə və hərbi hazırlıq fənlərinin tədrisinə ciddi diqqət yetirilməsi, şagirdlərin kompüter biliklərinin artırılması barədə tapşırıqlar vermişdir.

Sonra məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kültəpə kənd



tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Ölkəmizdə həyata keçirilən islahatlar Azərbaycanı ümumdünya təhsil sistemində qabaqcıl yerlərə çıxarıb. Bu gün Azərbaycan savadlılıq səviyyəsi yüz faiz təmin olunmuş ölkələr sırasındadır. Bütün bunların hamısı təhsil sahəsində görülmüş işlərin, müəllimlərin fəaliyyəti üçün yaradılan şəraitin nəticəsidir. Ölkəmizdə istər tam orta və peşə, istərsə də orta ixtisas, ali və akademik təhsil pillələri üzrə gənclərin təhsil almaları və peşə seçmələri üçün lazımi şərait yaradılmışdır. Bu da imkan verir ki, müəllimlər şagirdləri bacarıq və maraqlarına uyğun peşə seçiminə yönəltsinlər. Sevindirici haldır ki, gənclərimiz bu imkanlardan səmərəli istifadə edirlər. Kültəpə kənd tam orta məktəbində də şagirdlərin maraqlarına uyğun peşə seçiminə şərait yaradılmış, ali məktəblərə qəbulda məktəbin nəticələri 50 faizdən yüksək olmuşdur.

Ali Məclisin Sədri məktəbin nailiyyətlərinə görə müəllimlərə təşəkkür edərək demişdir:

*Ardı 2-ci səhifədə*





Qazanılan uğurlar onu deməyə əsas verir ki, məktəbdə nizam-intizam, müəllim tələbkarlığı və şagird çalışqanlığı vardır. Hazırda məktəbin şagirdlərindən 36-sı əlaçıdır. Bu nailiyyətləri qoruyub saxlamaq lazımdır. Müasir tədrisin tələbləri səviyyəsində qurulan məktəb uğurların daha da artmasına imkan verəcəkdir. Çünki məktəbin müəllimlərinin əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, diaqnostik qiymətləndirmədən keçənlərin əməkhaqqısı artırılmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin ***“Gənclər millətin gələcəyidir”***, – fikrini xatırladan Ali Məclisin Sədri demişdir ki, gənclərlə iş hər kəsin üzərinə düşən vəzifədir. Müasir məktəb binaları ona görə tikilir ki, gənclərimiz təhsilli və vətənpərvər böyüsünlər. Eyni zamanda müəllim əməyinə yüksək qiymət verilir ki, onlar ölkəmiz üçün peşə sahibi olan gənclər yetişdirsinlər. Kültəpə kənd tam orta məktəbində yaradılan şərait bu vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verir. Bu il məktəbin birinci sinfinə 26 şagird qəbul olmuşdur. Kollektiv müasir tədris şəraitindən səmərəli istifadə etməli, tədrisin səviyyəsi yüksəldilməli, şagirdlər hərtərəfli hazırlanmalıdır.

Kültəpə kənd tam orta məktəbinin direktoru Ruqiyyə Məmmədova çıxış edərək demişdir ki, məktəb əvvəllər köhnə və şəraiti olmayan binada fəaliyyət göstərirdi. Müasir məktəb binasında fəaliyyət göstərmək ən böyük arzumuz idi. Kollektivimizin arzusu reallığa çevrilib. Yaradılan şəraitdən səmərəli istifadə edərək savadlı və vətənpərvər gənclər yetişdirilməsi üçün çalışacaq, etimadı doğruldacağıq. Ruqiyyə Məmmədova kollektiv adından minnətdarlıq etmişdir.

Gənc müəllim Aytən Nağısoy minnətdarlıq edərək demişdir: “Kültəpə kənd məktəbinin müəllimləri müasir infrastruktura malik binada işləyəcək, şagirdlərimiz hərtərəfli təhsil alacaqlar. Bundan böyük diqqət və qayğı ola bilməz. Yüksək şərait təhsil işçiləri qarşısında mühüm vəzifələr qoyur, müəllimləri daha yaxşı işləməyə ruhlandırır, məsuliyyətimizi daha da artırır. Muxtar respublikada gənclərin işlə təmin olunması da daim diqqətdə saxlanılır. Bunun nəticəsidir ki, bu il keçirilən müsabiqədə yüksək nəticə əldə etmiş 100-ə yaxın müəllim orta məktəblərdə işlə təmin olunmuşdur. Həmin müəllimlərdən biri kimi mən də coğrafiya fənni üzrə Kültəpə kənd tam orta məktəbində müəllimlik fəaliyyətinə başlamışam. Belə gözəl və yaraşıqlı məktəb binasında işləmək ən böyük arzum idi”.

Binanın həyətində şəhid Həsən Şahverdiyevin büstü qoyulmuş, müəllim və şagirdlər üçün bufet, eləcə də fərdi qazanxana tikilmiş, açıq idman qurğuları quraşdırılmış və abadlıq işləri görülmüşdür.

## Kültəpə Kənd Mərkəzi istifadəyə verilmişdir







Sentyabrın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kültəpədə kənd mərkəzinin açılışını etmişdir.

Bildirilmişdir ki, kənd mərkəzində rabitə evi, kitabxana, polis sahə və baytarlıq məntəqələri, statistika otağı, mədəniyyət evi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, poçt bölməsi, arxiv və 66 yerlik zal yerləşir. Kitabxanada 4426 ədəbiyyat vardır. Onlardan 1666-sı latın, 2760-ı isə kiril əlifbası ilə çap olunmuş kitablardır. Burada oxunması zəruri olan kitablardan ibarət guşə də yaradılmışdır. Yeni Azərbaycan Partiyası Kültəpə kənd ərazi ilk təşkilatının 106 partiya üzvü vardır. Onlardan 25-i gənc, 45-i isə qadındır.

Rabitə evindəki 384 nömrə tutumlu ATS Kültəpə kəndində 192 abonentə xidmət edir. Hazırda kənddə 84 internet istifadəçisi vardır.

Kənd yaşayış məntəqələrində baytarlıq xidmətinin nümunəvi təşkili ərzaq təhlükəsizliyinin təminatında və sağlam məhsul istehsalında mühüm amildir. Ona görə də kənd mərkəzində baytarlıq məntəqəsi üçün lazımi şərait yaradılmışdır.

Ali Məclisin Sədri tikilənlərin qorunub saxlanılmasında və yaşıllıqların artırılmasında kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin və bələdiyyənin üzərinə mühüm vəzifələr düşdüyünü bildirmiş, müvafiq tapşırıqlar vermişdir.

Həyətdə abadlıq işləri aparılmış, müasir suvarma və işıqlandırma sistemi çəkilmişdir.

## Sakinlərə hərtərəfli səhiyyə xidməti göstəriləcək





Muxtar respublikanın kəndlərində müasir tibbi avadanlıqlarla təchiz olunmuş həkim ambulatoriyalarının istifadəyə verilməsi insan amilinə göstərilən diqqətin daha bir ifadəsidir.

Sentyabrın 30-da Kültəpə Həkim Ambulatoriyasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, tibbi xidmətin təşkili ilə maraqlanmışdır.

*Ardı 3-cü səhifədə*



Bildirilmişdir ki, lazımi tibbi avadanlıqlarla təchiz edilmiş ambulatoriyada 8 xidməti otaq, o cümlədən baş həkim, stomatoloq üçün kabinə, doğuş, fizioterapiya kabinəsi, qeydiyyat otağı və aptek vardır. Elektron qeydiyyat sistemindən istifadə gələcəkdə icbari tibbi sığortanın tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır.

Həkim ambulatoriyasında stomatoloji qurğu, doğuş masası, quruducu şkaf, sentrifuqa, hemometr, qlükometr, tərəzi, boyölçən, soyuducu və digər tibbi avadanlıqlar qoyulmuşdur. Fizioterapiya kabinəsi isə elektroterapiya və ultrasəslə müalicə aparatı, ultrayüksək tezlikli cərəyanla müalicə aparatı, parafinəritmə qazanı və solyuks lampası ilə təmin edilmişdir. Bildirilmişdir ki, bu ilin ötən dövründə kənddə 16 uşaq doğulmuşdur.

Tibb bacısı Hürrü Həsənova yaradılan şəraitin tibbi xidmətin yüksək səviyyədə təşkilinə imkan verəcəyini bildirmiş, kollektiv adından minnətdarlıq etmişdir.

Ali Məclisin Sədri səhiyyə xidmətinin keyfiyyətinin artırılması, eyni zamanda həkim briqadalarının kəndə göndərilməsi, yaş qruplarına görə qeydiyyat aparılması, uşaqların və hamilə qadınların sağlamlığına ciddi diqqət yetirilməsi barədə tapşırıqlar vermişdir.

## Kültəpə kənd avtomobil yolu yenidən qurulmuşdur






Muxtar respublikanın kəndlərində aparılan quruculuq işlərinin ən mühüm cəhətlərindən biri də yolların abadlaşdırılmasıdır. Yenidən qurulan kənd yolları yaşayış məntəqələrinin inkişafında əsas vasitəyə çevrilmişdir.

Sentyabrın 30-da Kültəpə kənd avtomobil yolu istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, kənddə tikinti işləri aparılarkən 8,9 kilometrlik avtomobil yolu da yenidən qurulmuşdur. Yol yatağı genişləndirilmiş, keyfiyyətli asfalt örtük salınmış, 85 su keçidi qoyulmuş, 1325 metrlik beton kanal çəkilmişdir. Həmçinin 700 metr kənddaxili yol yenidən qurulmuş, qum-çınqıl qatı verilmişdir.

## Kültəpədə xidmət mərkəzi fəaliyyətə başlamışdır





Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kültəpə kəndində xidmət mərkəzinin də açılışını etmişdir.

Mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları, dərzi və iki anbar vardır. Burada xidmət sahələrinin fəaliyyəti üçün nümunəvi şərait yaradılmış, 6 sakin işlə təmin olunmuşdur. Mağazada, əsasən, yerli məhsullar satışa çıxarılır. Xüsusilə də kənddəki ailə təsərrüfatlarında istehsal olunan məhsullara üstünlük verilir.

Mərkəzlə tanışlıqdan sonra sakinlərlə görüş olmuşdur.




Ali Məclisin Sədri Kültəpənin abadlaşan kəndlər sırasına qoşulduğunu bildirmiş, bu münasibətlə sakinləri təbrik edərək demişdir: Muxtar respublikanın kənd, qəsəbə və rayon mərkəzlərinin 90 faizə yaxını yenidən qurulub, abadlaşdırılıb. Kültəpə kəndi də müasir yaşayış məntəqəsinə çevrilmişdir. Kənddə yaradılan şərait, tikilən sosial obyektlər sakinlərə rahatlıq gətirəcəkdir. Tikmək, qurmaq işin bir tərəfidirsə, onların qorunması isə kənd sakinlərinin üzərinə düşən vəzifədir. Abadlaşan yaşayış məntəqələrində İctimai Nəzarət Şuraları yaradılmalı, həmin şuranın üzvləri inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə və sahə müvəkkili ilə birlikdə kəndin təmizliyinin, abadlığının, yaşıllıqlarının qorunmasını və artırılmasını diqqətdə saxlamalıdırlar.

Ali Məclisin Sədri demişdir: Kültəpə kəndinin məhsuldar torpaqları var. Bir neçə il bundan əvvəl kəndin su problemi də həll olunub. Bu gün kənddə yeni sosial obyektlərlə yanaşı, həm də müasir rabitə sistemi istifadəyə verilir. Artıq Kültəpə müasir Azərbaycan kəndidir. Ona görə də sakinlər yaradılan şəraitdən səmərəli istifadə etməli, torpaqları əkməli, bol məhsul istehsal etməli, təsərrüfatları genişləndirməli, yaşıllıqlar artırılmalıdır. Kültəpə kəndi muxtar respublikamızın, ölkəmizin ərzaq təhlükəsizliyinin və inkişafının təmin olunmasında yaxından iştirak etməlidir.

Kənd ağsaqqalı, "Şöhrət" ordenli Həsən Həsənov çıxış edərək demişdir: Kültəpə kəndinin inkişafı daim diqqətdə saxlanılıb. İki il bundan əvvəl kəndə yeni su kanalının çəkilməsi torpaqların su təminatını xeyli yaxşılaşdırıb. İndi həmin sahələrdə dənli bitkilərlə yanaşı, bostan və digər kənd təsərrüfatı məhsulları da yetişdirilir. Bu gün isə Kültəpə kəndi qəsəbə simasındadır. Kənd yolları asfaltlanmış, məktəb, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilmiş, rabitə və elektrik xətləri yenilənmişdir. Bütün bunlar insanların rahat və təhlükəsiz yaşayışına xidmət edir. Həsən Həsənov yaradılan şəraitə görə sakinlər adından minnətdarlıq etmişdir.

* * *

*Ardı 4-cü səhifədə*



Kənddə yeni sosial obyektlər tikilərkən bir sıra abadlıq işləri də görülmüşdür. 803 metr yeni fiber-optik və 1200 metr yeraltı rabitə xətti çəkilmiş, 3 transformator yarımstansiyası yenidən qurulmuşdur. Bundan başqa, 10 kilovoltluq elektrik xətləri yenilənmiş, 7600 metr qaz xəttinin yeri dəyişdirilmiş, artezian quyusu qazılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Əhalinin siyahıya alınmasına başlanılmışdır

*Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında mühüm tədbir olan əhalinin siyahıya alınmasına başlanılmışdır. Siyahıyaalma oktyabr ayının 1-dən 10-dək vahid prinsiplər və proqram əsasında bütün ərazidə, eyni zamanda adbaad, mərkəzləşdirilmiş qaydada aparılacaqdır.*



Naxçıvan Muxtar Respublikasında əhalinin siyahıya alınmasının təşkili məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 26 dekabr tarixli Sərəncamı ilə əhalinin siyahıya alınmasına yardım komissiyası yaradılmış və komissiyanın qərarı ilə iş planı təsdiq edilmişdir.

Muxtar respublikanın şəhər və rayonlarında siyahıyaalma ilə əlaqədar şəhər və rayon icra hakimiyyəti başçısı müavinlərinin sədrliyi ilə əhalinin siyahıya alınmasına yardım komissiyaları yaradılmışdır.

İş planına əsasən muxtar respublikanın şəhər və rayonlarının yaşayış məntəqələri üzrə sxematik plan və xəritələrin hazırlanması təmin edilmiş, hər bir inzibati ərazi vahidi üzrə təşkilati planlar işlənmiş, siyahıyaalmanın rayonlaşdırılması başa çatdırılmışdır.

Mövcud qanunvericiliyə uyğun olaraq muxtar respublika üzrə 9 şəhər, 24 kənd siyahıyaalma məntəqəsi, 91 şəhər, 218 kənd təlimatçı məntəqəsi, 455 şəhər və 1088 kənd sayıcı məntəqəsi yaradılmışdır. İş planında nəzərdə tutulan bütün tədbirlərin icrası müəyyən olunmuş vaxtda başa çatdırılmışdır. Siyahıyaalma, ümumilikdə, 52 sualı əhatə edib.

Dünən Dövlət Statistika Komitəsinin əməkdaşları Naxçıvan şəhəri, Şərur və Ordubad rayonlarında ailələrdə siyahıyaalmanın gedişi ilə tanış olublar.

Mühüm dövlət tədbirinin əsas icraçısı kimi əhalinin siyahıya alınması ilə bağlı hazırlıq işlərinin görülməsi və onun keçirilməsi, yekunlarının işlənilməsi, nəticələrinin dərc edilərək yayılması komitəyə həvalə olunub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Karateçilərimizdən 15 medal



Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun 50 illik yubileyinə həsr olunmuş ənənəvi "Olimpiya ümidləri" beynəlxalq turnirinə yekun vuruldu. Turnirdə 10-dan artıq ölkədən 6-13 yaşlı 800 karateçi mübarizə aparıb.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının 20 idmançısı da bu turnirdə mübarizə aparıb. İdmançılarımızdan 9-u 15 müxtəlif əyarlı medal qazanıblar. Belə ki, Ləman Bağırova (7 yaş, 20 kiloqram) və Aminə Novruzzadə (10 yaş, 40 kiloqram) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Fatimə Bağırzadə (6 yaş, 25 kiloqram), Özləm Hacıyeva (10 yaş, 30 kiloqram), Zəhra Məmmədova (10 yaş, 35 kiloqram) və Ayan Məmmədova (11 yaş, 40 kiloqram) isə gümüş medal qazanıblar. Özləm Hacıyeva və Zəhra Məmmədova, həmçinin kata yarışlarında bu uğura imza atıblar.

Nərgiz İsmayılova (11 yaş, 35 kiloqram) və Nərgiz Həsənli (11 yaş, 42 kiloqram) isə kata və kumite yarışlarında bürünc medal qazanıblar. 9 yaşlı idmançıların mübarizəsində Rafiq Hüseynli beynəlxalq turnirdə 3 medala layiq görülüb. Belə ki, 33 kiloqram çəki dərəcəsində kumite və kata yarışlarında bürünc medal qazanan idmançımız, 38 kiloqram çəki dərəcəsində ikinci olub.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## "Arıçılıq məhsulları – bal" festivalında 550 min manatdan artıq məhsul satılıb

***Sentyabrın 28-29-da "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində növbəti "Arıçılıq məhsulları – bal" festivalı keçirilmişdir.***



Muxtar respublikanın bölgələrindən 323 arıçının iştirak etdiyi festivala 13 min 774 kiloqram süzmə bal, 2873 kiloqram şan bal, 442 kiloqram mum, 183 kiloqram vərəmum, 48 kiloqram çiçək tozu, 45 kiloqram güləm, 1090 qram arı südü, 189 litr bal arağı, 55 litr bal şərbəti və digər məhsullar çıxarılmışdır.

Festivalda muxtar respublika arıçıları tərəfindən ümumi dəyəri 550 min manatdan artıq olan 18 min 314 kiloqram bal və digər arıçılıq məhsulları satılmışdır. O cümlədən "Naxçıvan məhsulları" tərəfindən 297 arıçıdan 1480 kiloqram bal alınmışdır.

Sonda arıçılar arasında "Ən yaxşı arıçılıq məhsulları – bal" nominasiyası üzrə müsabiqə keçirilmiş, 4 arıçı birinci, 3 arıçı ikinci, 2 arıçı isə üçüncü yerlərin qalibi olmuşdur. Festivalda 81 sənətkarın, eləcə də məhkumların dulusçuluq, ağacişləmə, tikmə, toxuma, tətbiqi sənət sahələrində hazırladıqları 600-dən çox müxtəlif əl işlərinin sərgi-satışı da keçirilmişdir.

İki gün davam edən festivalda 10 min 466 nəfər iştirak etmişdir ki, onlardan da 200-ü turist olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Xocavəndə qayıdacağımız gün uzaqda deyil

*Xəyanətkarlıqları, qorxaqlıqları və xəstə təxəyyüllərindən doğan dəhşətli əməlləri ilə özlərini ifşa edən ermənilər heç vaxt döyüş meydanında azərbaycanlılara qalib gələ bilməyiblər. Onlar həmişə ya havadarlarından dəstək alıb, ya da real hakimiyyətsizliyi, anarxiyanı, xaosu fürsət bilərək torpaqlarımızı işğal ediblər. Xocavənd rayonu da məhz bu yolla, 1992-ci il oktyabr ayının 2-də Ermənistan silahlı birləşmələri və onların havadarları tərəfindən işğal olunub.*

Xocavəndlilər dörd il ərzində ermənilərə qarşı inadlı müqavimət göstərib, bu torpaqların hər qarışı uğrunda qanlar tökülüb, şəhidlər verilib. Düşmənlə qeyri-bərabər döyüşlərdə rayonun uşaqlı-qadınlı, cavanlı-qocalı bütün sakinləri qəhrəmanlıqla iştirak ediblər. Xocavənd rayonunun təkcə Qaradağlı kəndi 4 ay tam mühasirə şəraitində qalıb, ancaq düşmənə təslim olmayıb. 800 nəfər sakini olan kənddə 91-i şəhid olub. Xocavəndlilər öz ata-baba yurdlarının müdafiəsi uğrunda 145 şəhid veriblər.

İşğal nəticəsində rayonun azərbaycanlılar yaşayan 10 kəndində 1723 yaşayış evi yandırılaraq əmlakları talan edilib, 47 sənaye, 144 kənd təsərrüfatı obyekti dağıdılıb. Erməni vandalları tərəfindən 17 təhsil müəssisəsi, 4 məktəbəqədər tərbiyə ocağı, 32 səhiyyə müəssisəsi, 59 mədəniyyət obyekti, 10 tarixi abidə məhv edilib. Rayonun infrastrukturuna aid olan 12 rabitə qovşağı, 341 kilometr avtomobil yolları, 32 körpü, 42 su anbarı və 316 kilometr su kəməri xətti dağıdılıb, talan edilərək yararsız hala salınıb. İşğal nəticəsində vurulmuş maddi, mənəvi ziyanla bərabər, rayonun bitki və meşə örtüyünə də böyük miqdarda zərər dəyib. Belə ki, rayonun 1202 hektar meşə sahəsindəki qiymətli ağac növləri qırılaraq məhv edilib.

1994-cü il aprelin 10-da Azərbaycan xalqının böyük oğlu, ümummilli lider Heydər Əliyev Xocavənd rayonu ərazisində cəbhə xəttinə səfəri zamanı Xocavənd taborunun döyüşçüləri ilə səmimi görüşüb, igid Vətən oğullarına öz təşəkkürünü bildirib, bir neçə cəsur döyüşçünü isə Vətənin yüksək mükafatı ilə təltif edib. Bu görüşdən ruhlanan əsgərlərimizin böyük şücaət və qəhrəmanlıqları sayəsində Xocavənd rayonunun – Dağlıq Qarabağın 14 min hektar ərazisi düşməndən azad edilib. Hazırda həmin ərazilər ordumuzun nəzarəti altındadır və rayon sakinləri orada gündəlik təsərrüfat işləri ilə məşğul olurlar.

Qeyd edək ki, rayonun ərazisi 1458 kvadratkilometr, əhalisi 42 min 120 nəfər, o cümlədən azərbaycanlılar 10 min 994 nəfər olub. Rayonun inzibati ərazisində bir şəhər, 2 qəsəbə və 81 kənd mövcud idi ki, onlardan da 10-da azərbaycanlılar yaşayıb. Xocavənd rayonu Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın və Xocalı rayonları ilə həmsərhəddir. İqtisadiyyatında üzümçülük, heyvandarlıq, quşçuluq və bostançılıq üstünlük təşkil edib. Ancaq daha çox rayon üzümü və yaşıl mərməri ilə məşhur olub. Füsunkar təbiəti ilə fərqlənən Ziyarət, Kirs və Ərgünəş yaylaqları Kiçik Qafqazın əsrarəngiz təbiət gözəlliklərini özündə əks etdirir. Ərazisindəki Bağırxan, Qırmızı Bazar, Mədə bulağı, Baba bulağı kimi istirahət zonaları min bir dərdin dərmanı idi.

Bəşər sivilizasiyasının beşiklərindən biri olan Xocavənd bölgəsi antik, orta əsrlər, yeni və müasir dövr maddi mədəniyyət nümunələri və tarixi abidələrlə zəngindir. Bu bölgədə ilk insanların yaşadıqları mağaralara, qədim yaşayış yerlərinə, erkən şəhər mədəniyyəti qalıqlarına, möhtəşəm qala divarlarına, müxtəlif dövrlərdə inşa edilmiş türbələrə, Naxçıvanda da geniş yayılmış daş qoç heykəllərə, ümumiyyətlə, nadir mədəniyyət nümunələrinə hər yerdə rast gəlinib. Xocavənd ərazisində 72 dünya və respublika əhəmiyyətli tarixi-memarlıq və mədəniyyət abidələri var. Bunlar Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini göstərən abidələrdir.

Gündən-günə güclənən ordumuz, qazanılan Aprel və Günnüt zəfərləri xocavəndlilərdə böyük inam yaradır. Onlar əmindirlər ki, tezliklə xalqımız və dövlətimiz doğma yurdlarımızı, şəhidlərimizin uğrunda vuruşduqları müqəddəs torpaqlarımızı düşmən işğalından azad edəcək. O zaman işğal tarixlərini deyil, qələbəmizin ildönümlərini doğma Qarabağda qeyd edəcəyik. Çünki ölkəmizin apardığı uğurlu xarici siyasət nəticəsində Ermənistan qlobal əhəmiyyətə malik bütün layihələrdən təcrid edilib, bu və digər səbəblərdən iqtisadiyyatı iflasa məruz qalıb, burada faktiki hakimiyyətsizlik yaranmağa başlayıb. Ölkəmiz isə, əksinə, bütün istiqamətlər üzrə daha da güclənib. Bu gün Azərbaycan artıq diktə edən tərəf, söz sahibidir və bundan sonra mövqeyimiz daha da möhkəmlənəcəkdir. Bu gün təkcə Əlahiddə Ümumqoşun Ordunun düşməni lərzəyə salan qüdrəti, onun strateji yüksəkliklərə tam nəzarəti, istənilən hərbi hədəfi darmadağın etmək gücünə malik olması onu göstərir ki, biz Böyük Qələbənin astanasındayıq.

**✍ Rauf KƏNGƏRLİ**

### *İtmişdir*

Quliyev Mais Fizuli oğlunun adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Şıxmahmud kəndində yaşamış Nağıyeva Güllü Yusif qızına məxsus 572$^{A}$ inventar nömrəli, 10311018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 667